# Azərbaycan AŞ PA ilə əməkdaşlığın inkişafına böyük önəm verir

## Oqtay ƏSƏDOV: "Təəssüf ki, bəzən ölkəmizə qarşı ikili standartlarla yanaşmanın şahidi oluruq"

**"Azərbaycan Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük önəm verir. Ölkəmiz 2001-ci ilin yanvarından Avropa Şurasının tamhüquqlu üzvü seçilib.**



Bu, müstəqilliyimizin bərpasından sonra əldə etdiyimiz mühüm nailiyyətlərdən biridir. Ancaq, təəssüflər olsun ki, bəzən müəyyən anlaşılmazlıq və ermənilərin məqsədlərinə xidmət edən lobbiçilik fəaliyyəti göstərən bir sıra deputatların hərəkətləri ucbatından qurumda Azərbaycana qarşı qərəzli mövqenin və bir sıra məsələlərə ikili standartlarla yanaşmanın şahidi oluruq. Buna baxmayaraq inanırıq ki, gələcəkdə belə xoşagəlməz hallar aradan qalxacaq, müzakirə doğura biləcək məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün normal şərait yaranacaq".

Bu fikirləri dünən Milli Məclisin Sədri Oqtay Əsədov Avropa Şurası Parlament Assambleyasının prezidenti xanım Lilian Mori Paskie ilə görüşdə səsləndirdi. Ötən müddət ərzində Azərbaycanın hüquqi, demokratik dövlət quruculuğu prosesində Avropa Şurasının və onun qurumlarının dəstəyini hiss etdiyini vurğulayan Oqtay Əsədov dedi ki, qarşılıqlı əməkdaşlıq istiqamətində ötən dövr ərzində xeyli işlər görülüb: "Azərbaycanda hüquq sisteminin təməl prinsiplərini özündə əks etdirən qanunvericilik bazası formalaşdırılıb. İmzalanmış 70-ə yaxın əfv sərəncamına və 11 amnistiya aktına uyğun olaraq 40 min nəfər məhkum azadlığa buraxılıb. Azərbaycan Prezidentinin bu ilin mart ayında imzaladığı əfv fərmanına uyğun olaraq 431 nəfər azadlığa çıxıb".

Oqtay Əsədov onu da diqqətə çatdırıb ki, Azərbaycan əsrlər boyu tolerant məkan kimi tanınıb. Hazırda da ölkəmizdə etnik və dini tolerantlıq hökm sürməkdədir. Məscidlərin, kilsələrin, sinaqoqların dinc şəraitdə fəaliyyət göstərməsi bir daha Azərbaycanın multikultural ölkə olduğunu təsdiqləyən faktdır.

Azərbaycanın gələcəkdə də AŞ PA, o cümlədən bütün beynəlxalq təşkilatlar ilə əməkdaşlığının genişləndirilməsində maraqlı olduğunu deyən Milli Məclisin Sədri bildirdi ki, bu günlərdə qurumun Azərbaycan üzrə məruzəçisi ölkəmizə səfər edib və diplomat bu səfərlə bağlı yanvar ayında AŞ PA-ya hesabat təqdim edəcək.

AŞ PA prezidenti xanım Lilian Mori Paskie rəhbərlik etdiyi təşkilatla Azərbaycan arasında maraqlı, işgüzar əməkdaşlığın olduğunu bildirdi. O, qeyd etdi ki, təmsil etdiyi qurum Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır.

Xanım Lilian Mori Azərbaycanın qurumdakı nümayəndə heyətinin fəaliyyətini də yüksək dəyərləndirdi. Onun sözlərinə görə, deputatlarımız təşkilatın struktur qurumlarında və keçirilən tədbirlərdə daim fəal iştirak edir, müzakirə olunan məsələlərə öz münasibətlərini bildirir, maraq doğuran əhəmiyyətli təkliflərlə çıxış edirlər. Nümayəndə heyətinin üzvlərinin hazırladıqları hesabatlar, məruzələr böyük marağa səbəb olur.

İclasda tərəfləri maraqlandıran digər məsələlər ətrafında da müzakirələr aparıldı.

***R.BAXŞƏLİYEV,***
***F.BAĞIROV (foto),***
***"Azərbaycan"***

Azərbaycan.- 2019.-12 sentyabr.- S.2.